*Qaçdım sənin dalınca mən...*
*Tələbələr tələsir, dərs ilinin başlanması gecikir*

*Akif MƏMMƏDOV*

**Ağlınıza başqa şey gəlməsin. Burda qaçdı-qovdu oynayan müğənni ilə kəpənək deyil. Bunlar aylarla dərs ilinin və qəbul imtahanlarının başlanmasını gözləyən tələbələrimizdir. Qaçırlar ki, dərs ilinə çatsınlar. Elə çata-çatda dərs ili də eynən kəpənək kimi uçub qonur beş günlük, on günlük... məsafədə.**

Bəs qəbula hazırlaşan minlərlə abituriyentin gözünü yolda qoymağın minlərlə tələbəni aylarla tədrisdən ayırmağın günahı kimdədir? Əlbəttə və yenə əlbəttə, ermənilərdə. Onların hücumu hesabına başımız qaçmağa qarışmasaydı, gözümüzü açıb görərdik ki, bizdə tələbə qəbulu ilə məşğul olan müstəqil, nazirlik səviyyəsində bir komissiya var. Onda da öyrənməyə çalışardıq ki, görəsən bir il sərasər bu komissiya nə iş görüb? Gecikmələri bir yana keçənilki qəbul qaydaları təkmilləşdirilibmi? Və görərdik ki, yox. Heç nə dəyişməyib; yenə hamıya eyni test sualları, yenə köçürhaköçür. Yenə də belə bir xəbərdarlıq: "Heç kəs başqasından köçürməsin, yoxsa...". Bu lap "səs salsan, xortdan gəlib səni aparar" aldatmasına oxşayır.

Bəli, komissiyanın başı bir müddət hökümətdən ayrıca bina, əalvə səlahiyyətlər (məsələn, məktəb işçilərinin attestasiyasını kimin aparması üstündə Təhsil Nazirliyi ilə dartışma və s.), nə bilim daha nələr almaq cəhdinə qarışdı. Sonra da ölkənin başı səsvermələrə, referendumlara, seçkilərə qarışdı. Belə qarışıqlıqda da təhsil, maarif nə böyük şeydir ki, yada düşsün?

**Hərdən papağımı qabağıma qoyub fikirləşirəm ki, vallah, deyəsən, biz bir elə də aciz millət deyilik. Necə olurdu ki, əvvəllər bir nazirlik qəbul imtahanlarını da vaxtında aparırdı, dərs ilini də gecikdirmirdi? Məsələ ondadır ki, bizi işlətmək üçün gərək şakərimizi biləlr. Şakərimiz də MARAQ məsələsidir. Yəni o şeyə ki, MARAĞımız var, orda dağı dağ üstünə qoyarıq, olmayan yerdə dünya-aləm dağıla, xeyri yoxdur. Məsələn, ən alınmaz qalanın**

**içində bir vəzifə kreslosu qoyalar, onun da arxasında çoxlu şan-şöhrət dura, həmin qalanı bir gün nədir, lap bir saatda alarıq.**

İndi də gələk mətləb üstünə. Demək, aydın olur ki, ixtiyar sahibləri tədris ilinin başlanması, qəbul imtahanlarının vaxtında keçirilməsi ilə niyə ciddi məşğul olmur. Necə olur ki, ayda bir dəfə referendum, prezident seçkisi kimi kütləvi tədbirlər keçirə və bunlara ətək-ətək pul xərcləyə bilirik, amma ildə bir dəfə düz-əməlli qəbul imtahanı təşkil edə bilmirik? Çünki farslar demişkən: "an koca, in koca?". Yenə də deyirəm, harda MARAQ var, orda iş də var. Bu zəhrimar test də təhsilə olan az-çox "marağ"ı bilmərrə öldürdü.

Təhsildən az-çox başı çıxan bilir ki, tələbənin, şagirdin bir gün dərsə gəlməməsi onun tədris işinə nə qədər ziyan vurur. Bəs aylarla necə? Özü də heç bir əsaslı səbəb olmadan, ümumrespublika miqyasında. İndi fəxr edirik ki, tələbələri təsərrüfat işlərinə cəlb edib Təhsil Qanununu pozmuruq. Çox yaxşı. Bəs kənar işlərin süni şəkildə tədris işlərinə "cəlb edilməsi" (oxu: mane olması) qadağan deyil? Bir ara dedilər ki, etimad referendumu keçiririk, məktəblər "zanit"dir. Dərsə sonra başlayarıq. Bir az keçdi prezident seçkiləri böyürdən çıxdı. Və nəhayət, lap axırda da bəyan elədilər ki, qaçqınlar gəlib tələbə yataqxanalarına doluşub, qoy onlar yerbəyer edilsin, sonra başlayarıq. O vaxtdan, görəsən, neçə qaçqın yataqxanalardan çıxarıldı ki, oktyabrın 19-da dərsə başlamaq istəyirlər? Əksinə, gələnlərin sayı bir az da çoxalıb. Əgər səbəb bu idisə, deməli, hələ dərs ili oktyabrın 19-dan uçub qona bilər, tutaq ki, noyabrın 1-nə...

***"Azadlıq" qəzeti, 16 oktyabr 1993***